

Heydər Əliyev İli 2023





Əbədi ömrün fotosalnaməsi

"Ulu Öndər Heydər Əliyevin 100 illiyinin təntənəli şəkildə keçirildiyi bir vaxtda Amerika Birləşmiş Ştatlarında Ümummilli Liderin fotolarından ibarət kitabımın təqdimi, eləcə də həmin fotolardan ibarət sərgimin təşkil olunması mənim üçün böyük xoşbəxtlik idi.

Şəxsi fotoqrafı olaraq Ulu Öndərin on il ərzində çəkdiyim fotoları bu dahi şəxsiyyətin unudulmaz tarixi fəaliyyət salnaməsidir.

Xoşbəxt insanam ki, xalqımızın milli xəzinəsinin inciləri olan bu qiymətsiz fotolar həm də bir fotoqraf olaraq mənim şah əsərlərim, yaradıcılıq sərvətimdir..."

Həyatın dönüm nöqtəsi

Söz vaxtını çəkər deyərlər, 1993-cü ilin iyulunda Prezident səlahiyyətlərini həyata keçirən Heydər Əliyevin şəkillərini çəkmək lazım idi. Həmin zaman digər fotoqraflar tərəfindən çəkilən şəkillərin heç biri Heydər Əliyevin xoşuna gəlmədiyi üçün bu məsuliyyətli işə görə onu dəvət etmişdilər. Özünü professional və bu nəhəng şəxsiyyətin fotolarını çəkəcək səviyyədə görmədiyi üçün əvvəlcə etiraz etmiş, amma ən müasir aparatura onda olduğu üçün son anda razılaşmışdı. Yenə də özünə tam güvənmədiyi üçün çəkilişə o zaman məşhur olan bir fotoqrafla bərabər getmişdi...

On il Ulu Öndərin, üç il isə Prezident İlham Əliyevin şəxsi fotoqrafı olaraq çalışmış Rafiq Bağırov Heydər Əliyevlə ilk dəfə onun iş otağında - Milli Məclis Sədrinin kabinetində görüşmüşdü...

Azərbaycanın vətənpərvər oğlu Heydər Əliyevin qürurlu, sevincli, bəzən də nisgilli anlarını fotolentin yaddaşına köçürmüş Rafiq Bağırov danışır ki, Ümummilli Liderin fotolarını ilk çəkdiyi gün həyatının ən həyəcanlı, eyni zamanda da elə dönüm günü olub:

- Həmin zaman xeyli foto çəkərək lentləri aşkarlamağa aparmışdıq, o dövrdə bu proses çox çətin idi. Lent müxtəlif məhlullardan keçirdi, axırda quruyub çıxanda görürdün ki, şəkil çıxıb, yaxud yanıb. Bu lentləri də aşkarlayanda məlum oldu ki, mənimlə bərabər Heydər Əliyevin şəkillərini çəkən fotoqrafın şəkillərinin heç biri alınmayıb. Lentin birinə işıq düşmüşdü, birində rənglər qarışmışdı, digərində isə kadrlar bir-birinin üstündəydi. Çox dilxor oldum, artıq hər şey məndən asılı idi. Üç plyonka çəkmişdim, orada 100-dən yuxarı şəkil var idi. Gətirdim, qorxa-qorxa aşkarladım. Amma baxdım ki, normaldır. Bir müddətdən sonra bir neçə hazır fotonu Heydər Əliyevə təqdim etdim. Bütün şəkillərə diqqətlə baxdıqdan sonra əksəriyyətini bəyəndi. Və son sözünü özünəxas tonda dedi: "Sən mənimlə işləyəcəksən"...

Uzaq Amerikada Ulu Öndərin xatirəsinə ithaf

Heydər Əliyevin bu qərarı Rafiq Bağırova yeni Azərbaycanın ən şanlı səhifələrinin fotosalnaməçisi olmaq kimi tarixi və qürurlu bir şans bəxş edir. Fotoqraf özü də deyir ki, bu il iyunun 22-də ABŞ-də Ulu Öndərin fotolarından ibarət kitabının təqdim olunması, eləcə də fotolarından ibarət sərgisinin keçirilməsi də bu unudulmaz insanın onun həyatına bəxş etdiyi müstəsna şərəfdir:

- Mart ayında Azərbaycanın ABŞ-dəki səfiri cənab Xəzər İbrahimli tərəfindən mənə təklif gəldi ki, Ulu Öndərin 100 illik yubileyi münasibətilə Heydər Əliyevin bu ölkəyə səfərlərindən, eləcə də digər seçilmiş fotolarından ibarət bir kitab nəşr edilsin. Qısa zaman ərzində nəfis tərtibatda çap edilən və 100 şəkildən ibarət "ABŞ xatirələri fotolarda" adlı bu kitabda həm də Heydər Əliyevin indiyə qədər heç yerdə nümayiş olunmayan fotoları yer alıb.

ABŞ-dəki səfirliyimizin təşəbbüsü ilə qərara gəlindi ki, bu kitabın təqdimatı Vaşinqtonda həyata keçirilsin. Burada Ulu Öndərin kitabda yer alan fotolarının, eyni zamanda həyat yoldaşım, rəssam Nigar Bağırovanın bu il Ulu Öndərin yubileyinə həsr etdiyi portretinin sərgilənməsi də nəzərdə tutulmuşdu.

İyunun 22-də keçirilən bu möhtəşəm tədbirdə 200-ə qədər şəxs, diplomatik korpus nümayəndələri, azərbaycanlı və əcnəbi qonaqlar iştirak edirdi.

Heydər Əliyevin müxtəlif zamanlarda ABŞ-yə səfərləri, bu ölkənin prezidenti olmuş üç şəxslə - Corc Herbert Buşla (ata Buş), Corc Volker Buşla (oğul Buş) və Bill Klintonla olan görüşləri zamanı çəkilən səmimi fotoları tədbir iştirakçıları tərəfindən böyük rəğbət və maraqla izləndi. Nigar xanımın çəkdiyi və sanki Heydər Əliyevin canlı əksi olan tablosu da böyük bəyənmə ilə seyr edildi.

Azərbaycanın Ulu Öndərinin əziz xatirəsinə ithaf olan bu kitabın dərc edilməsinin, eyni zamanda Vaşinqtonda fotosərgisinin təşkil olunmasının ən mühüm məqsədlərindən biri də dünya çaplı siyasət lideri Heydər Əliyevin şəxsiyyəti fonunda ABŞ-Azərbaycan əlaqələrini daha da inkişaf etdirməkdən ibarətdir.

Fotoqraf olaraq Ulu Öndərin tarixi səfərlərinin və görüşlərinin canlı şahidi kimi deyirəm ki, bütün ölkə başçılarının olduğu kimi, ABŞ liderlərinin də hər biri tərəfindən Heydər Əliyevin şəxsinə böyük hörmət, ehtiram var idi. Hətta səfərlərin birində "ata Buş" Heydər Əliyevi öz şəxsi kateri ilə evinə qonaq aparmışdı. Diqqətçəkən məqam o idi ki, ABŞ prezidenti bu qonaqpərvərliyini indiyə qədər digər dövlət başçılarının heç birinə göstərməmişdi...

Bu sadə misalın özü belə Heydər Əliyevin dünya miqyaslı siyasətçi olmasına kiçik bir nümunədir. Məhz Ulu Öndərin şəxsi nüfuzunun nəticəsidir ki, vaxtilə Amerika-Azərbaycan əlaqələrinin uğurlu təməli qoyulub və bu gün də bu siyasət Ümummilli Liderin layiqli davamçısı cənab Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir.

Vaşinqtonda Ulu Öndərin 100 illiyinə həsr olunmuş kitab təqdimatı və fotosərgidə səfirimiz cənab Xəzər İbrahimli çıxış edərək dahi rəhbərin əziz xatirəsini ehtiramla yad etdi, Ulu Öndərin şərəfli ömür yolundan danışdı.

Öz növbəmdə mən də çıxışımda xalqımızın Ümummilli Lideri haqqında xoş təəssüratlarımı bölüşdüm, bu dahi insanla işlədiyim 10 il ərzində baş verən qürurlu və sevincli günlərə bir daha xatirələrin köməyi ilə qayıtdım…

Dünyaya sirayət edən nüfuz

Uzaq Amerikada olduğu kimi, elə bizimlə həmsöhbət olduğu zaman da Rafiq Bağırov Ulu Öndərlə bağlı unudulmaz xatirələrinin ecazkar cazibəsinə düşdü.

10 il ərzində Heydər Əliyevlə bərabər dünyanın 100-ə yaxın ölkəsində, dünyanın nəhəng dövlət başçılarının saraylarında, kabinetlərində olmuş fotoqraf söyləyir ki, Heydər Əliyev fəaliyyəti müddətində xarici dövlət və hökumət başçıları, həmçinin dünya siyasətini müəyyənləşdirən görkəmli dövlət xadimləri ilə minlərlə görüş keçirib və o da bu görüşlərin demək olar ki, hamısında iştirak edib:

- Bu heyrətamiz gerçəklikdir ki, bütün görüşlərdə, danışıqlarda qarşı tərəfin kimliyindən, nüfuzundan asılı olmayaraq, birmənalı olaraq təşəbbüskarlıq, söhbətin istiqamətini müəyyənləşdirmək imkanı həmişə Heydər Əliyevə məxsus olurdu. Hamı onun təcrübəsi, nüfuzu, fikirləri ilə hesablaşırdı. Ümummilli Liderin dünyanın fövqəldövlətlərinin rəhbərləri, ən nüfuzlu beynəlxalq təşkilatların başçıları ilə görüşləri indi də gözlərimin önündən kino lenti kimi keçir, bu görüşlərlə bağlı saysız xatirələr yadıma düşür.

Unudulmaz xatirələrimdən biri isə Ulu Öndər və cənab Prezident İlham Əliyevlə Səudiyyə Ərəbistanına səfərimiz olub. O zaman biz Kəbənin içərisinə girib ziyarət etmişik ki, bu icazə, ancaq sayılıb-seçilən adamlara verilir.

Yenə də hər iki Prezidentlə bərabər Yaponiyaya səfərə gedəndə İmperator sarayında olmuşam. Hətta sadə yaponların özü üçün belə İmperator sarayında olmaq əlçatmaz arzudur.

Ümumiyyətlə, Heydər Əliyevin nüfuzuna olan hörmətə, ehtirama görə bütün xarici ölkələrdə Azərbaycan Prezidentinə hər cür müsbət istisnalar edirdilər və buna görə idi ki, dünya siyasətinin dahilərindən olan Heydər Əliyevin üzünə bütün qapılar taybatay açıq idi...

Azərbaycanın ən şanlı səhifələrinin lent yaddaşı

Ümummilli Lider Heydər Əliyevin şəxsi səyləri sayəsində 1994-cü ildə bağlanan "Əsrin müqaviləsi" sözün əsl mənasında Azərbaycanı 1990-cı illərin əvvəllərində yuvarlandığı uçurumdan xilas yoluna çıxardı, ağır sınaqlarla üz-üzə olan xalqımız rifah yoluna qədəm qoydu. Həmin günün tarixin lent yaddaşına köçən ən möhtəşəm əksi isə dünyanın ən böyük azərbaycanlısı Heydər Əliyevin gülə-gülə əlini neftə bulayaraq üzünə çəkdiyi fotodur. Həmsöhbətimiz Rafiq Bağırov bu məşhur fotonun qürurlu tarixçəsini belə xatırlayır:

- Baxmayaraq ki, həmin zaman orada 30-40-a yaxın fotoqraf var idi, o şəkli təkcə mən çəkmişəm. Onda İngiltərə şirkəti də ingilis fotoqraf çağırmışdı. Heydər Əliyevin əlini neftə bulayıb üzünə çəkdiyi anda həmin fotoqraf qız qaçdı qabağa ki, çəksin və bu zaman bütün fotoqrafların obyektivini bağladı. Qeyri-ixtiyari dərhal fotoaparatı başımın üzərinə qaldırıb düyməsini basdım. Xoşbəxtlikdən kadr çox yaxşı alınmışdı. Sonradan həmin qızın kadrlarına da baxdım, heç onda da alınmamışdı. Ona görə də bu qiymətli kadr təkcə mənə məxsus oldu...

Çox xoşbəxtəm ki, Ulu Öndərin ən sevincli günlərinin fotoəksini yaratmaq mənim qismətimə düşüb və belə müstəsna məqamlardan birini 1997-ci ilin avqustunda yaşamışam. Prezident Heydər Əliyev ABŞ-də rəsmi səfərdə idi. Bill Klintonla görüşdən sonra Hyustona gəldik. Burada olanda Heydər Əliyevin növbəti dəfə baba olması haqqında şad xəbər aldıq. Prezident, baba hədsiz sevinc içərisində idi. O, Bakıya dönərkən yolüstü Londonda dayandı və yeni doğulmuş körpənin olduğu klinikaya gəldi. Nəvəsini ona təqdim edəndə gözləri yaşardı, təntənəli, bir o qədər də kövrək səslə dedi ki, "Mən bu uşağın adını Heydər qoyuram".

Həmin gün mən Heydər Əliyevin bir baba olaraq nəvə xoşbəxtliyi yaşadığı anların təsirli şəkillərini çəkdim...

2003-cü il oktyabrın 31-də cənab İlham Əliyevin Prezident kimi andiçmə mərasimindən çəkdiyim şəkillər də tariximizin ən şərəfli anlarının dəyərli fotolarıdır.

Sadə və insansevər

Ümummilli Liderin fotosalnaməçisi qeyd edir ki, Heydər Əliyevin gündəlik təqvimi çox gərgin idi. O, nadir adamlardan idi ki, hətta 12-13-14 saat da işləyə bilirdi.

- Onunla işlədiyim 10 il ərzində demək olar ki, heç şənbə-bazarımız da olmayıb. Ulu Öndər hər gün işə çıxırdı, çox nadir hallarda evdə istirahət edirdi. Axşam saat 8-dən, 9-dan tez evə getmirdi. O dövr elə çətin və mürəkkəb idi ki, daim çalışırdı. Öz istirahəti barədə heç zaman düşünmürdü, amma hər zaman bizə deyirdi ki, siz niyə gedib dincəlmirsiniz? Çox humanist adam idi, hər bir işçisi diqqətində idi...

Səfərlərdə onu müşayiət edən heyətin hər bir üzvünün gecələdiyi hotelin vəziyyəti, onların istirahəti, qidası ilə daim, özü də diqqətlə maraqlanırdı. Səfər müddətində nümayəndə heyətinin hətta ən kiçik ranqlı texniki işçisi də Heydər Əliyevin qayğısını görürdü.

Eyni zamanda da özümə qarşı bu müdrik şəxsiyyət tərəfindən hər zaman böyük diqqət, qayğı hiss etmişəm. Bir gün xəbər verdilər ki, Heydər Əliyev səni yanına çağırır. İstər-istəməz həyəcanlandım, düşündüm ki, yəqin işimlə bağlı nəsə çatışmazlıq var. Çox narahat halda dövlət başçısının otağına getdim. Lakin kabinetinə daxil olanda Heydər Əliyevin məni 50 illik yubileyim münasibətilə təbrik etməsi, sanki üzərimdən bir dağ götürdü, dünyaları mənə verdi. Həmin vaxt düz bir saat Heydər Əliyev mənimlə söhbət etdi, şəxsi işlərimlə maraqlandı, hansısa çatışmazlığım, problemim olması barədə soruşdu. Dövlət başçısı gərgin iş qrafikinə, bir dəqiqə belə boş vaxtı olmamasına baxmayaraq, sözün həqiqi mənasında, qızıl dəyərində olan 1 saatını mənə, fotoqrafına, adi işçisinə həsr etdi...

Bax belə sadə və insansevər idi Heydər Əliyev...

Sevincli və kədərli anların fotoları

"1998-ci ildə Prezident mənə təxminən 8 saat vaxt ayırdı ki, portretlərini çəkim. Kostyumda, frakda və sair", - deyən Rafiq Bağırov qeyd edir ki, Ulu Öndərin qalstuksuz, ailəsi ilə bir yerdə olan sadə şəkillərini də çox çəkib. İllər öncə "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqovla bərabər həmin şəkillərdən ibarət "Ömrün sadə anları" adlı bir kitab da nəşr etdiriblər.

- Ulu Öndərin qəmli, kədərli anları ilə bağlı da şəxsi fotoarxivimdə yetərincə fotoları var. Ömür-gün yoldaşı, görkəmli alimimiz Zərifə xanım Əliyevanın məzarını, eləcə də Şəhidlər xiyabanını ziyarət zamanı, adətən, bu dağ vüqarlı insanın gözləri dolurdu.

Amma fotoarxivimdə Prezidentin sevinc gözyaşlarının yer aldığı şəkillər daha çoxdur. "Əsrin müqaviləsi"nin imzalanması, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməlinin qoyulması mərasimində, eləcə də ordu birləşmələri ilə tanış olarkən və onların hərbi təlimlərini görərkən Heydər Əliyevin çəkilən şəkillərində onun qürur və fəxarətdən doğan sevinc gözyaşlarını seyr etmək mümkündür...

2003-cü il aprelin 22-dən iyulun 8-dək, Prezidentin tibbi müayinədən keçmək üçün Ankaraya getdiyi günə qədər xalqımızın, dövlətimizin rifahı, tərəqqisi üçün necə fədakarlıqla işlədiyinin şahidiyəm. Hər birimiz Onun səhhəti ilə bağlı narahatlıq keçirirdik, istəyirdik ki, Prezident, heç olmasa, bir müddət istirahətə getsin, özünü, səhhətini qorusun. Ancaq Heydər Əliyev bu narahatlıqları müşahidə edərək deyirdi ki, hələ tamamlanmamış işlər çoxdur, xalq məni dincəlmək üçün seçməyib, işləmək üçün seçib, Azərbaycanın problemləri qala-qala mənim öz qayğıma qalmağa haqqım çatmır...

Təəssüf ki, tale xalqımızın vətənpərvər oğlu Heydər Əliyevin son fotolarını çəkməyi də qismətimə yazmışdı. 2003-cü il iyulun 8-də Ankarada təyyarə trapından düşəndə Onun şəkillərini çəkdim. Yenə də gülərüz və şux idi. Bu fotolar Ulu Öndərin çəkilən son şəkilləri idi...

Ölkəmizin təbliğinə misilsiz töhfə

10 il ərzində Heydər Əliyevin şəxsi fotoqrafı kimi çalışmış Rafiq Bağırovun Ulu Öndərin çəkdiyi portretləri indi bütün respublikada, kitablarda, qəzetlərdə, jurnallarda, saytlarda, rayonlardakı Heydər Əliyev adına mərkəzlərdə, daha neçə-neçə məkanda istifadə olunur. Eyni zamanda bu fotolar xaricdəki səfirliklərimizin, dünyada fəaliyyət göstərən Azərbaycan evlərinin, ölkəmizin təbliğini həyata keçirən bütün qurumların bina və ofislərində sərgilənir.

İyunun 22-də ABŞ-dəki səfirliyimizin təşəbbüsü ilə Vaşinqtonda Rafiq Bağırovun Heydər Əliyevin fotolarından ibarət kitabının təqdimatı, eləcə də dahi azərbaycanlının şəkillərindən ibarət sərgisinin təşkili də Ulu Öndərin ruhuna böyük ehtiramın təcəssümü, eyni zamanda bu dahi şəxsiyyətin timsalında ölkəmizin dünyada təbliğinə misilsiz töhfədir.

- Ulu Öndər Heydər Əliyev kimi şəxsiyyətin mühüm görüşlərinin, səfərlərinin, ümumiyyətlə, ən əlamətdar günlərinin lentin yaddaşına köçürəni olaraq özümü Tanrının şanslı bəndələrindən hesab edirəm ki, taleyin bu gözəl naxışını mənim qismətimə yazıb.

Ulu Öndər mənə etimad edib, adımı ucaldıb, dünyanın ən böyük azərbaycanlısının şəxsi fotoqrafı kimi adım tarixin yaddaşına həkk olunub.

Fani dünyada isə insan üçün bundan böyük xoşbəxtlik yoxdur...

Yasəmən MUSAYEVA,
"Azərbaycan"